# Azərbaycan 2030-cu ilə hansı yolla gedir?



***"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" elan edilib. Azərbaycan Prezidenti bu barədə sənəd imzalayıb. Qarşıdakı onillikdə ölkəmizin sosial-iqtisadi inkişafında müəyyən olunmuş beş vacib milli prioritet ölkəmizdə yaşayan hər bir şəxsə nə vəd edir? Söhbət hansı prioritetlərdən gedir? – Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat; Dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət; Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı; İşğaldan azad olunmuş ərazilərə böyük qayıdış; Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi.***

İlk növbədə, belə bir ümumiləşmiş fikrə gəlmək olar ki, elan edilən bu prioritetlərin qorunmasına, gerçəkləşdirilməsinə xidmət etmək bir vətəndaşlıq vəzifəsidir. İkincisi, sənəd toplumda gələcəyə yönəlmiş müəyyənlik yaratmağa kömək edir. Üçüncüsü, dövləti və xəlqi enerjini nizamlı istiqamətləndirməyə, düzgün inkişaf alqoritmi yaratmağa kömək edir. Dördüncüsü, dövlət öz qarşısına mühüm vəzifələr qoyubsa, deməli, bu vəzifələrin həyata keçirilməsi üçün yetərli imkanlara sahibdir, yaxud, daha əlverişli perspektivə çatmağa dərin əminlik vardır. Beşincisi, yalnız sosial-iqtisadi prioritetlərlə qalmayıb, mədəni, psixoloji və s. amillər baxımından bu sənədin öz yeri, dərəcəsi vardır.

Yuxarıda sadalanan faktorları və amilləri unutmadan, daha bir məqamı vurğulaya bilərik. Bu da, dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyatın formalaşdırılmasının dövlətimizin uyğun bildiyi seçim olmasıdır. Əlbəttə, bu prioritetin təsirli şəkildə həyata keçirilməsi üçün davamlı və yüksək iqtisadi artım, habelə daxili və xarici təsirlərə dayanıqlıq təmin olunmalıdır.

İqtisadi artım vətəndaşların həyatına təsir göstərən başlıca amillərdən biridir. Bu tendensiya yüksək gəlirli iş yerləri yaratmaqla həyat səviyyəsinin ilbəil yaxşılaşmasını təmin etməlidir. İqtisadiyyatda tətbiq olunacaq yeniliklər və təsdiq olunmuş "Milli Prioritetlər" cəmiyyətin böyük hissəsinin həyat səviyyəsinin yaxşılaşmasına xidmət edəcək. İqtisadi artımın və məşğulluğun başlıca qaynağı olaraq, özəl sektorun, xüsusilə də kiçik və orta sahibkarlığın çıxış etməsi üçün işgüzar mühit önəmli dərəcədə yaxşılaşdırılmalıdır.

Ölkə iqtisadiyyatına birbaşa xarici yatırımların, o cümlədən infrastruktur sahələrinə strateji yatırımçıların cəlb edilməsi təmin olunmalıdır. Bir sözlə, ölkə iqtisadiyyatı öz müstəqilliyini qorumaq məqsədilə daxili və xarici təsirlərə dayanıqlılığını təmin etməlidir. Sirr deyil ki, yalnız şaxələnmiş iqtisadiyyat dayanıqlı ola bilər. Bu planda qeyd ediləcək istiqamətlərdən birincisi, iqtisadiyyatda qeyri-neft sektorunun payının artmasına nail olmaqdır.

Yüksək iqtisadi artım dinamik və inklüziv cəmiyyətin formalaşmasına xidmət etməli, başqa sözlə, hər bir vətəndaş öz həyatında bu inkişafı hiss etməlidir. Bəlli olduğu kimi inklüziv inkişaf iqtisadi inkişaf dövründə iqtisadi proseslərin iştirakçılarına toplumun hər bir sahəsi üçün yararı olan bərabər imkanlar təmin edən konsepsiyadır. Bu konsepsiya iqtisadi inkişafın ənənəli modellərini genişləndirir, səhiyyə sahəsində bərabərliyə, insan kapitalına, ətraf mühitin keyfiyyətinə, sosial müdafiəyə və ərzaq təhlükəsizliyinə xüsusi diqqət yetirir.

Bu prioritet hər bir vətəndaşın bəhrələnməsi, yüksək, ədalətli sosial təminat və inklüziv cəmiyyət – paytaxt və regionların tarazlı inkişafı kimi 3 məqsəd əsasında uğurla gerçəkləşdirilməlidir. Heç kəsə sirr deyil ki iqtisadiyyat inkişaf etdikcə vətəndaşın sərvəti, gəlirləri, o cümlədən əməkhaqlarının artırılması – layiqli səviyyə təmin edilməlidir. İqtisadi islahatlar birxətli, dar çevrəli olmayıb, toplumun, demək olar, bütün təbəqələrini əhatə edəcək. Yəni ölkəmizin bütün təbəqələri toplumun ayrılmaz hissəsidir və dövlət onların qayğısına qalır.

Bölgələrin inkişafını paytaxtın inkişaf səviyyəsinə uyğunlaşdırmaq da önəmli vəzifələrdəndir. Bunun üçün bölgələrdə zəruri olan bütün iqtisadi, sosial infrastruktur artıq yaradılıb. Bölgələrin milli gəlirdə payının artırılması təmin edilməlidir.

Azərbaycan Prezidenti hələ illər öncə "Biz neft kapitalını insan kapitalına çevirməliyik" demişdi. Dövlət siyasətinin özəyində insan amili dayanır. Bunun nəticəsində milli iqtisadiyyat fərqli istiqamətlərdə canlanır, inkişaf edir. Ölkə iqtisadiyyatı əgər pandemiya məhdudiyyətləri dönəmində də bir çox region, dünya dövlətləri ilə müqayisədə ən az itkilərlə, öz dayanıqlılığını mümkün olduğu qədər yaxşı qoruyaraq çıxa bilibsə, bu, ötən illər ərzində atılmış addımların nəticəsidir. Əgər pandemiyadan öncə ÜDM artımı, sənaye istehsalı artımı, yoxsulluq şəraitində yaşayanların sayının azalması müşahidə edilməsəydi, pandemiya dönəmi ağır keçə, postpandemiya daha ağır qarşılana bilərdi. Beləliklə, Azərbaycanda aparılan islahatların sosialyönümlülüyü bir tərəfdən, pandemiya təcrübəsi digər yandan, bir başqa sözlə, öncəki illər elan olunmuş prioritetlərə müqabil görülmüş işlər 2030 – il üçün Milli Prioritetləri elan etməyə, 10 il sonranın üfüqlərini təsəvvür etməyə imkan yaradır. Bu imkanlar hesabına respublikamızın maliyyə imkanları genişlənəcək, böyük quruculuq işləri aparılacaq, xarici və daxili yatırımlar artacaq.

Beləliklə, ölkəmiz rəqabətli insan kapitalı və çağdaş innovasiyalar məkanına çevrilməlidir. İnsan kapitalı mövzusunda fikrimizi ümumiləşdirəsi olsaq, deməliyik ki, dünyada artan rəqabətə hazır olmaq üçün hər bir ölkənin prioriteti yüksək rəqabətli insan kapitalını formalaşdırmaqdır. Bunun üçün çağdaş təhsil, innovasiyaları təşviq edən münbit ortam və insanların sağlamlığı əsas şərt kimi çıxış edir. Və bu prioritetin də uğurla gerçəkləşdirilməsi üçün növbəti üç məqsədə nail olmaq gərəkdir: XXI yüzilin tələblərinə uyğun təhsilin qurulması, yaradıcı və innovativ cəmiyyətin formalaşması, bir də vətəndaşların sağlam həyat tərzinin formalaşması.

Dövlətin davamlı inkişafını şərtləndirən amillərdən biri də, heç şübhəsiz, yüksək səviyyəli təhsil, daha doğrusu, təhsil sistemidir. Dünyada artan rəqabətə davam gətirə bilmək üçün iqtisadiyyatın uzunmüddətli inkişafı çağdaş, güclü təhsilə arxalanmalıdır. Deməli, respublikamızda XXI əsrin tələblərinə uyğun olan təhsil sisteminin formalaşmasında dövlətin iqtisadi potensialının payı mütləq şəkildə artırılmalıdır. Nəhayət, gözümüz, dünya universitetlərinin reytinq cədvəllərində autsayderlər sırasında qalmasın, universitetlərimizi ilkin mərhələdə heç olmazsa, onlarla pillə irəliləyən görək... Orta məktəb şagirdlərinin məhz orta məktəblərdə verilən biliklər hesabına universitetlərə qəbul ola biləcəyi bir düzən yaratmalı, necə deyərlər, paralel təhsil, məşğələlər öz funksiyasını orta məktəb proqramlarına, orta məktəb auditoriyalarına "bağışlasın"... Paytaxtın bir sıra məktəblərində siniflərdə şagird sıxlığı həll edilsin. Bu dediklərimiz özündə o fikri də bəsləyir ki, bölgələrlə paytaxt arasındakı fərq elə səviyyədə olmalıdır ki, ölkənin bir tərəfində məktəblər boşalıb, digər yanında böyük sıxlıq yaranmasın. İnanırıq ki, bu məsələnin çözümündə açar rolunu oynayan faktorlardan biri, Qarabağa Böyük Qayıdış olacaq. Çox şükür, tarixi zəfər həyatımıza sirayət edəcək, uşaq da, böyük də öz həyat və fəaliyyətində bunu bilavasitə hiss edəcəkdir.

Təhsildən ətraf mühit və "yaşıl artım" mövzusuna keçsək, deyə bilərik ki, ölkəmizin dayanıqlı inkişafını təmin edən önəmli amillərdən biri də bu mövzudan keçir. Qlobal iqlim dəyişikliklərinin miqyasını nəzərə alaraq ekoloji təmiz texnologiyaların tətbiqinə önəmli yer verilməli, təmiz enerji qaynaqlarından istifadə, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpası təşviq edilməlidir. Ölkəmizin perspektiv iqtisadi inkişafı ilə yanaşı ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların sürətli bərpası, artırılması, su ehtiyatlarından və dayanıqlı enerji qaynaqlarından səmərəli istifadə təmin edilməlidir. Su mövzusu ötən il iki planda xüsusilə aktuallıq kəsb etdi. Birincisi, ölkənin su təsərrüfatı ilə bağlı ölkə başçısının videoformatda keçirdiyi konfrans, o konfransı zəruri edən səbəblər, konfransdan sonra, sahənin inkişafı ilə bağlı Prezidentin imzaladığı mühüm sərəncamlarla bağlıdır. İkincisi isə, işğalçı Ermənistan üzərində tarixi zəfərimiz nəticəsində bir sıra su qaynaqlarımıza nəzarətin bərpası, onlardan məqsədyönlü, səmərəli istifadə imkanı ilə bağlıdır. Bu iki istiqamətdə əldə edilmiş nəticələr növbəti, daha üstün nəticələr üçün böyük önəm daşıyır.

Düşməni bərəkətli torpaqlarımızdan iti qovan kimi qovmağımız, onların ətraf mühiti, meşə zolaqlarını və s. daha artıq korlamasının da qarşısını almış oldu. İndi həm düşmən haqsız əldə etdiyi imkanları itirib, həm azad edilmiş ərazilər respublikamızın və regionun iqtisadiyyatına, o cümlədən ekologiyaya, ətraf mühitin qorunmasına şanslar yaradıb.

Dövlətimizin iqtisadi inkişafında Milli Prioritet kimi qəbul olunan ətraf mühitin qorunması vəzifəsi öz növbəsində iki növbəti məqsədin təsirli şəkildə gerçəkləşdirilməsinə xidmət edir. Yüksək keyfiyyətli ekoloji mühitin təmin olunması və yaşıl enerji məkanın yaradılması…

Nəhayət, dövlətimizin inkişafına, cəmiyyətimizin rifahına xidmət edən mühüm təşəbbüs, ideyalar toplusu kimi də xarakterizə edilən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" proqramının təsdiqlənməsi dövlətin idarəolunmasında strateji planlaşmanın təcəssümüdür. Bu, milli maraqlar və strateji planlamanın vəhdətini təcalla etdirir. Dövlətin davamlı inkişafını təmin etmək üçün Azərbaycanda bütün zəruri amillər mövcuddur. Fikirlərimizi yekunlaşdırarkən, risklərin azalmasına, sahələrin sürətli inkişafına, həmçinin istiqamətlər üzrə sahəvi prioritetlərin müəyyən olunmasına xidmət edən strateji idarəetmə metodu, eyni vaxtda ölkənin gələcək inkişaf mənzərəsini də müəyyən edir.

Sonda onu deyək ki, sosial-iqtisadi, ictimai-mədəni həyatda ciddi təkamül yolunu inamla keçən respublikamız sabit, təhlükəsiz və çağdaş həyat səviyyəsini təmin etmiş ölkə kimi dünyada tanınır. Bu, özünəməxsus prioritet müəyyənləşdirmə imkanı, başqa sözlə, istinadgahdır. İkincisi, Azərbaycan Vətən müharibəsindəki tarixi zəfərimiz respublikamızda, ümumən regionda yeni siyasi-iqtisadi gerçəklik yaradıb. Azərbaycanda mahiyyət etibarı ilə yeni inkişaf mərhələsi başlanıb. İşğaldan azad edilmiş ərazilərimizin ümumölkə iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq, regional nəqliyyat-logistika dəhlizlərinin yaradılması, onların imkanlarından yararlanmaq respublikamızın inkişafına öz ciddi təkanı ilə seçiləcək. Milli Prioritetlərin onuncu ilinədək, hətta ilk beşinci ilində düşmənin xaraba qoyduğu bölgələrimiz abadlaşdırılacaq, çağdaş həyatın əsası olan layiqli yaşayışın bərpası üçün bütün sahələrdə quruculuğa nail olunacaq. Əhalimiz Böyük Qayıdışla dayanıqlı məskunlaşma və iqtisadi fəaliyyətə reinteqrasiya ilə növbəti məqsədlərə qapı açacaq.

***Əkbər QOŞALI***

Xalq qəzeti 2021.- 14 fevral.- S.5.